*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 89-95* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.89*

# 1920-1960-cı illər Azərbaycan şeirində təbiət obyekt və predmetlərinin simvolik funksiyası

**Günay Qarayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gunaygarayeva@gmail.com

**Annotasiya.** Təbiət hadisə və təzahürləri, obyekt və predmetləri ilə bədii düşüncədə əsas obrazyaradıcı funksiyaya malikdir. Poetik təfəkkürün aktiv komponentlərindən olan dağ, daş, qaya, ağac, dəniz, bulaq və s. təbiət elementləri yalnız estetik funksiya daşımır, insanın ətraf aləmi, dünyanı modelləşdirmə, dərketmə vasitəsi olaraq, həm də fəlsəfi mahiyyət, simvolik məzmun daşıyır. Hər bir şairin yaradıcılığında onun yaddaşı, dünyagörüşü, həyatı duyum və dərk üsulu müəyyən bir təbiət elementinin işləkliyi ilə seçilir və həmin obraz – simvol şairin məqsəd və məramını, fərdi-intiutiv hisslərinin təzahür vasitəsinə çevrilir. Dağ, çinar, dəniz, daş, qaya, bənövşə və s. təbiət obrazları bu baxımdan milli poeziyamızda tez-tez təkrarlanan obraz-simvollardır. Məqalədə S.Vurğun, R.Rza, Ə.Kərim, N.Xəzri, Q.Qasımzadə, N.Həsənzadə, M.Yaqub, H.Kürdoğlu, T.Bayram və başqalarının şeir nümunələri əsasında ənənəvi təbiət simvollarının obrazlılıq funksiyası, kök, universal simvol olan dağın fərqli simvolik çalarlarına, ağacın müasir şeirimizdə çinar, palıd, söyüd, qovaq və s. kimi variyasiyalaşması, ay simvolunun ay işığı kimi çeşidli simvolik məqamlarına nəzər yetiriləcək və geniş təhlillər aparılacaq.
**Açar sözlər:** şeir, insan-təbiət, simvol, dağ, ağac, ay işığı

**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2025; qəbul edilib – 08.05.2025

# The symbolic function of natural objects and elements in Azerbaijani poetry of the 1920-1960s

**Gunay Garayeva**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gunaygarayeva@gmail.com

**Abstract.** Nature’s phenomena and manifestations, as well as its objects and elements, hold a central image-creating function in artistic thinking. Natural elements such as mountains, rocks, cliffs, trees, seas, springs, and others – which are active components of poetic imagination – do not merely serve an aesthetic purpose. Rather, they function as means of modeling and comprehending the surrounding world and reality, carrying philosophical significance and symbolic meaning.
In the creative works of each poet, the frequent use of a specific element of nature reflects their memory, worldview, way of perceiving and interpreting life. That chosen image-symbol becomes a medium for expressing the poet's intent, message, and personal, intuitive emotions. Symbols and images like mountains, plane trees, seas, stones, rocks, violets, etc., are recurring symbolic motifs in our national poetry.

This article will analyze the figurative function of traditional nature symbols in poetry samples by S. Vurğun, R. Rza, A. Kerim, N. Khazri, G. Gasimzade, N. Hasanzade, M. Yaqub, H. Kurdoglu, T. Bayram, and others. It will particularly focus on the various symbolic layers of the mountain as a root and universal symbol, the transformations of the tree symbol into plane, oak, willow, poplar, and similar variations in modern poetry, and the symbolic dimensions of the moon image, including moonlight. These aspects will be thoroughly examined and analyzed in depth.
**Keywords:** poetry, human-nature, symbol, mountain, tree, moonlight

**Article history:** received – 24.04.2025; accepted − 08.05.2025

## Giriş / *Introduction*

Yaradıcılıq insanın əhatəsində olduğu mühit, o mühitə daxil olan komponentlər, qavranılan ətraf aləmdən kənarda mümkün deyil. Hər poetik mərhələ müəyyən bir simvolik sistemə söykənmiş olsa da (təbii ki, hər yaranan sistem özünə qədər mövcud olan simvolik sistemin davamı və fərqli interperetasiyada təqdimidir – G.Q.), onun təbiəti dərk, qavrama, görmə, duyum hissi fərqlidir. Azərbaycan ədəbiyyatında bədii düşüncənin inkişaf mərhələlərində hər zaman işlək funksiyaya malik olan, obrazlaşaraq simvollaşan təbiət obraz və elementləri vardır ki, bütün mərhələlər üzrə keçərlidir. Bəşəri dünyagörüşün ən qədim dövrlərindən günümüzə qədər poetik təfəkkürün aktiv komponentlərindən olan dağ, ağac, dəniz, qaya, daş, bulaq, bənövşə, lalə və s. təbiət elementləri artıq şeirimizdə "vətəndaşlıq hüququ" qazanan, daşlaşmış təbiət obrazlarıdır.

## Əsas hissə / *Main part*

Poeziyamızda tez-tez təkrarlanan torpaq, daş, qaya, bənövşə, lalə, zirvə, çinar, palıd və s. təbiət elementləri obraz, bədii detal, simvol olaraq geniş vüsət almışdır. Bu obyektlərin səciyyəvi cəhətlərindən biri yaddaşla, köklə, ənənəylə bağlı rəmzi çalar kəsb etmələrindədir. Bu obrazlar içərisində dağ həm universal, həm kök, həm də milli yaddaş simvolu olaraq tez-tez təkrarlanan və hər dönəmdə simvolik məzmununu qoruyan təbiət obrazlarındandır. Müasir şeirimizdə dağ obraz-simvolu çeşidli semantik məzmuna, simvolik funksiyaya malikdir. Dağla dərdləşmək, hisslərini, duyğularını onunla bölüşmək, dost, həmdəm münasibət, ən çətin anında ondan kömək ummaq lirik qəhrəmanın dağa əski təsəvvürdən gələn mifoloji inancla bağlıdır. Bu simvolik süjet demək olar ki, Azərbaycan şeirinin əsas motivlərindən biridir. Milli yaddaş etnosda, kök, mənşə yaddaşında dirilir. Millət özünəqayıdışda kökə, mənşəyə daha çox bağlanır. Mifik yaddaşda dağ, su, daş müqəddəsliyi başqa bir zamanın əsas predmetinə çevrilir. "İstiqlal şairlərinin demək olar ki, hamısı ən çətin anlarında dağa, suya, selə müraciət etmişlər. Şifahi xalq ədəbiyyatında, Azərbaycan xalqının mifik təfəkküründə dağ və su həmişə saflıq, təmizlik, güc və qüvvət rəmzi kimi yad edilmişdir. Sanki bu şairlər də öz itirdiklərini dağa, suya tapınmaqda, ondan yeni güc almaqda görmüşlər" [5, s.93-94]. İstiqlalını itirmiş xalqın milli məfkurəli fikir aydınlarını bir arada birləşdirən də, onların ideyalarını daha qabarıq səsləndirən də xalqın yaddaş genefondunda olan simvolik obrazlardır. Dağla ünsiyyət qurma, dərdini suya danışma, selə müraciət insanın ən çətin anında tapındığı təbiət obyektləridir. "Yollarda bir aşiq yaman üzülmüş, dərdinə bir dərman istər, a dağlar" (Ə.Cavad), "Hay vurub, qıy vurub səs sal dağlara, Gözəllər oylağı göy yaylaqlara, Mənim bu dərdimi de oylaqlara, Sinəmdən oxladı bir maral məni" (S.Vurğun), "Dağlar, dağlar, yorulmuşam, yuxuma gir, yastığım ol, dinclik ver mənə" (Məmməd Aslan), "Dağlar, məni adam elə, Qayam, məni adam elə" (M.Yaqub) və s. Bədii əsərlərdə dağ-insan, dağ-əcdad, dağ-vətən, yurd yeri, bədii məkan, dağ mənəvi-əxlaqi keyfiyyətlərin göstəricisi kimi böyüklük, ucalıq rəmzi, dağ-yaddaş qismində təsvir olunur. Dağ obrazının poetik çalarları da birxətli, stabil deyil. Dağ bədii obraz, metafora, simvol, alleqoriya kimi müxtəlif obrazlılıq funksiyasına malikdir. Dağın canlı qismində dərk olunması, onunla dərdləşmək,

ondan güc almaq, kömək ummaq etnos təfəkkürünə bağlı əsas simvolik məqam kimi 1920-60-cı illər Azərbaycan şeirində də əsas motivlərdən biri kimi nəzəri cəlb edir. Ə.Cavad, A.İldırım, S.Vurğun, N.Xəzri, Q.Qasımzadə, X.Rza, M.Araz, M.Yaqub, H.Kürdoğlu, M.Aslan və başqalarının yaradıcılığında müqəddəslik statusunu qoruyan dağ mif, etnos təfəkküründən gələn simvolikliyini qorumaqla gözəlliyin əsiri olmaq, ondan qopmamaq, ayrılmamaq yalnız şairin gözəlliyə vurğunluğu və fərdi ehtiyacı kimi deyil, həm də milli-mənəvi yaddaşa, əxlaqa, ilkinliyə bağlılığın rəmzi səciyyəsinə çevrilir. Dağ stereotipləşmiş, daşlaşmış simvoldur. XX əsr Azərbaycan şeirində dağ obrazı yurd anlamında, el-oba anlamında işlənir ki, bu da özündə dərin məzmun daşıyır. Dağa qayıtmaq, yurda dönmək həm də ölümə işarədir, öz ilkinə qayıtmaqdır.

*İndi mən ömrümün bahar çağları*
*Bilmədiklərimi bilirəm burda;*
*Könlüm çox axtarır uca dağları,*
*Bir gün dönəcəyəm çıxdığım yurda.* [8, s.89]

Müxtəlif semantik mənaya malik dağ obrazı etnos, mif, folklor təfəkküründən irəli gələn impulsları yaşatmaqla yanaşı, əxlaqi-estetik kateqoriya kimi böyüklük, əzəmət, ucalıq rəmzi kimi simvollaşdırılır. Lakin burda bir məsələni də qeyd etmək yerinə düşər. Obrazın daşıdığı simvolik məna itmir, dəyişilir və yenilənir. Simvol işlək mexanizm kimi hər dönəmdə öz ilkin kökündən ayrılmayaraq yeni məna ilə yüklənir. Əgər simvolik məna obrazda yenilənmirsə, eyni kontekstdə təkrarlanırsa, obrazda simvolik məzmun itir, motivləşir. XX əsr Azərbaycan şeirində dağ obrazı özünün zəngin simvolik funksiya çalarlığında motivləşən simvollardandır.

Simvolik sistemdə mövcud olan mifoloji, kosmoqonik, astral simvolların ənənəvi kontekstdə dəyişilməsi, təkrarlanmasında mifologiyadan, türk etnosundan, dövlətçilik ənənələrindən gələn məqamlar daha aparıcıdır. Ənənəvi obrazların mədəniyyətin inkişaf dönəmlərində ilkin semantik mənanı saxlamaqla təsvir, təbiəti bədii dərk sistemində yeni ideya, simvolik məzmun çalarları kəsb etməsi konkret struktur modeldən çıxaraq obraza, obyektə fərdi-intuitiv yanaşma modeli olaraq yeni simvolik mənaların yüklənməsi ilə diqqət çəkir. Simvolik modeldə bu dəyişmə ilk növbədə Azərbaycan ədəbiyyatında folklora, öz ilkinə, yaddaşa bağlılıq, özünəqayıdış, insan-təbiət münasibətlərinin dəyişilməsi, təbiəti dərk sistemində ekoloji, mənəvi, psixoloji problemlərin dərinləşməsi ilə əlaqəli idisə, digər tərəfdən üslub polifonizmi, fərdi üslubların yaranması ilə bağlı idi.

Şeirimizdə "ağac"ın ənənəvi semantik mənasını (həyat ağacı, insan nəsli, soykök və s.) saxlamaqla, müxtəlif növlərinin – çinar, palıd, söyüd, qovaq və s. simvollaşması, "ay" obrazının "ay işığı" ilə əvəzlənməsində simvolun daşıdığı semantik məna çalarlarının müxtəlifliyi obrazın ənənəvi struktur-semantik modelindən ayrılaraq fərdi üslubi səciyyə daşıması ilə bağlı idi. Ağac kultu dünya mifologiyasında çox geniş yayılmış kök simvollardandır. Ağac arxetipi, onun müqəddəsliyi, tanrının bir parçası kimi yaradıcı gücə malik olması mifoloji şüurda, türk xalqlarının əski çağ insan görüşlərində önəmli yer tutur. Türk ənənəvi dünyagörüşündə ağac kök, mənşə, yaddaşla, təbiətin cəmiyyətlə bağlılığının rəmzi ifadəsidir. Əbədi həyat rəmzi olan ağac keçmişlə indini, bu günlə gələcəyi və nəsilləri bir-birinə bağlayan elementlərdəndir. "Miflərdə ağacı iki funksiyada müşahidə edirik. 1. Ağac – dünya modeli rolunda; 2. Ağac-əcdad rolunda. Hər iki funksiya bir-birilə bağlıdır. Ağacın dünya modeli funksiyasını yerinə yetirməsi onun ilkin mifoloji kosmoqoniyada – dünyayaratmada iştirakı deməkdir. Bu da onun əcdad funksiyasını şərtləndirir. O bir kosmoqoniya (yaradılış) elementi kimi, əslində vahid funksiyanı yerinə yetirir. Çünki yaradılış prosesini modelləşdirmək (dünya modeli rolunu yerinə yetirmək) elə kosmoqonik valideyn olmaq deməkdir" [4, s.50]. Türk yaradılış dastanlarında adı keçən "Dünya ağacı" semantik model olaraq funksionallığını ayrı-ayrı mədəniyyətlərdə qoruyub saxlamış, dünya folklor nümunələrində geniş və yaygın şəkildə işlənmişdir. Sonralar "mifoloji poetika"dan "bədii poetika"ya keçiddə ilkin işarəvi xüsusiyyət öz əhəmiyyətini itirməmişdir. XX əsr Azərbaycan şeirində müxtəlif ağac növlərinin

simvolik mənalılığında ağac-yaddaş, ağac-əcdad, ağac-insan xətti aparıcıdır. Ağac-insan, ağac-əcdad, ağac-yaddaş xətti qorunan, yaşadılan əsas simvolik məqamlardandır. "Səni ağcaqayın andırır mənə", "Sən də o ağacı xatırladırsan" [1, s.111] və yaxud "Hüseyn şimşəktək çaxdı dünyada, Atanı gətirmək istəsən yada, Yolun qırağında Ağstafada, Əkdiyim ağacı qoru sən, oğul" [3, s.20] və s. İnsanı ağacla eyniləşdirmək, ağacı insanın simvolu kimi təqdim etmək N.Xəzrinin "Xatırladarsan", B.Vahabzadənin "Durna qatarı", M.Arazın "Bir ağac yıxıldı", M.Yaqubun "Biz də ağaclar kimiyik", "Yaşıdlarım, yaşıllarım", "Zərnavada bağlar gördüm", "Təkqayada bitən vələs", H.Kürdoğlunun "Palıd yanır, tək yanır" və s. şeirlərində bu iki canlı varlıq arasında əski təsəvvürlərdən gələn simvolik məqamları qorumaqla yanaşı, insanın yaddaşla, əcdadla, kök və mənşə ilə bağlılığının ifadəsidir.

Simvolun əsasında poetik müqayisə dayanır. İnsan ətraf aləmdə gördüyü, müşahidə etdiyi varlıqlarla, əşya və ya predmetlərlə müəyyən oxşarlıq və bənzətmələri assosiativ şəkildə müəyyən mənalandırmalar üzərində qurur. "Hər hansı bir poetik müqayisə bir rəmzə söykənməlidir; əks halda, bu, yalnız sözlər üzərində qurulan bir oyun, aldadıcı bir görmə olacaq və bir dəqiqəlik ürəyimizə yol tapmadan yanımızdan nəticəsiz uçacaqdır. ...... Əgər insanlar fiziki dünyanın bəzi obyektlərinin mənəvi mənası barədə müəyyən bir konsepsiyaya sahibdirlərsə, deməli, belə bir obyekt insanlar üçün bir simvol ehtiva edir" [9]. İnsan düşüncəsi işləkliyi və yaradıcı funksiyası ilə özünün mənsub olduğu ulusun, elin, etnosun, mədəni yaddaşın əsas komponentlərindən biri olmaqla kollektiv düşüncəyə, həm də ətraf aləmi müəyyən zaman və psixologiyaya uyğun olaraq dərk etməyə, fərdi düşüncə tələblərindən yanaşma və qavramaya malikdir. Deməli, onun daim özünəqədər olanı qorumaq, yaşatma missiyası ilə yanaşı, həm də yenidənyaratma, qurma funksiyası da var. Simvolik mənalandırmada şairin mədəni-fəlsəfi, bioloji-fiziki, əxlaqi-estetik, ictimai-sosial görüşləri eyni müstəvidə birləşsə də, müəyyən obyekti görüm və qavrama bacarığı fərqlidir.

Ağacın çeşidli simvolik funksiya çalarlığında çinar, palıd, söyüd obrazları seçilir. Bunların içərisində çinar kökə, yaddaşa bağlılıq, vətən rəmzi, palıd əxlaqi-mənəvi müstəvidə böyüklük, ucalıq rəmzi, qovaq kövrəklik rəmzi, söyüd isə çeşidli funksiyaya malik, həm müsbət, həm də mənfi assosiasiyalar doğuran obraz-simvollardandır.

Əgər diqqətlə nəzər yetirsək, hər bir yaradıcılıqda şairin yaddaşı, dünyagörüşü, həyata baxış fəlsəfəsi və özünütəqdimdə müəyyən təbiət elementi seçilir, poetikləşir, diri obraz kimi bütün yaradıcılığından keçir, təkrar işləndikcə simvollaşır. Çinar obrazı Rəsul Rza yaradıcılığında belə aktiv yaddaş simvoludur. Obrazın simvola çevrilmə etapları da fərqlidir, lakin bütün məqamlarda şairin məqsədinin, fərdi-intuitiv hisslərinin təzahür elementidir. Bu, çox zaman müəllif məqsədinin, qarşıya qoyduğu ideyanın təməl prinsipinə çevrilir. Bəzən isə təsvir, obyekt və onun təsvirindən yaranan təəssürat hissi obrazı simvola keçirir. Şairin yaddaşı mənsub olduğu xalqın milli-mənəvi düşüncəsi ilə bağlı olan (bədii simvol fərdi olduğu qədər də milli və ümumbəşəridir) obraz şairin doğulduğu məkanın, ətraf aləmin atributudur. Şairin təsvir etdiyi "Göyçayda poema misralarıtək düzülüb yol boyu hündür çinarlar"ın əzəmətli görünüşü, vətən torpağının, doğulduğu məkanın bir hissəsi kimi hələ 1935-ci ildə qələmə aldığı "Çinar" şeirində bədii simvol səviyyəsinə qalxır və elə, ulusa, millətə, torpağa, yaddaşa bağlılığın simvolik vahidinə çevrilir. Eyni məqama S.Vurğunun "Çinarın şikayəti" şeirində də rast gəlmək mümkündür. "Çinar" şeirində işarə, metaforik dil, alleqorik məzmun fonunda obrazın əsas ideya məzmunu açıqlanır. Gecə vaxtı qocaman bir çinara söykənərək "budaqlarında sərin yelin xoş səsi", "yarpaqlarının həzin-həzin nəğməsi" eşidilən, "öz ömründə çox əsrlər qocaltmış", "başı bütün ağaclardan yuxarı, "qopan tufan, yağan yağış, od qamçılı ildırımlar dağlara, çəmənlərə yaralar vursa da, əzəmətli çinarı öz kökündən ayıra bilməmişdir.

*Karvan çəkər göydə qara buludlar.*
*Çovğun gələr, şaxta kəsər, buz donar.*

*Xan çinarım əyməz məğrur başını.*
*Kimsə bilməz xan çinarın yaşını.*
*Gecə qara, durdum düşündüm bir az,*
*Dedim nədən ulu çinar yıxılmaz?*
*Birdən çinar dilə gəldi dedi: - bax!*
*Bu torpaqda dərindən kök salaraq,*
*Hər tərəfə uzatmışam qolumu,*
*Övladlarım bürüyüb sağ-solumu.*
*Belə məğrur dayanmağa haqlıyam.*
*Mən kökümlə bu torpağa bağlıyam.* [7, s.98]

Öz kökünə bağlı olan, rişələri torpağın dərinliklərini dəlib deşən çinar maddiləşir, insanın yurduna, kökünə bağlılığın simvolik vahidi kimi əxlaqi-estetik kateqoriyaya çevrilir. R.Rza şeirində olduğu kimi, N.Xəzridə də çinarın daşıdığı simvolik funksiyası eyni kontekstdə verilsə də, daha konkretdir. Çinar Azərbaycanın, vətənə, kökə, ulusa bağlılığın simvoludur [6, s.137].

Söyüd ağacı bütün xalqların mif və əfsanələrində yer alan, çeşidli və ziddiyyətli simvolik mənaya malik obrazlardandır. Söyüd bir tərəfdən həyat ağacı kimi günəşi, uzunömürlüyü, ayrılığı, yarımçıq, pərişan sevgini, digər tərəfdən gecə, bədbəxtlik, ölüm, kədəri də simvollaşdırır. N.Həsənzadənin "Yanına gəlmişəm" şeirində sevgilisi ilə keçirdiyi günlərin xatirələrini canlandıran lirik qəhrəman bu sevgiyə şahid kimi yaşıl söyüd ağacını xatırlayır. Bu xatırlatma adi bir hiss və yaxud təsadüf deyil. Söyüdün ənənəvi simvolik funksiyasının yaşanan sevginin fonunda əsatirləşməsidir.

*Yanına gəlmişəm, təzədən küsək,*
*Təzədən barışaq, görək olurmu?*
*Saat gör neçədir bir az tələsək,*
*Gedək,*
*Yaşıl söyüd görək durexcellent?* [2, s.112]

N.Xəzrinin "Salxım söyüdlər" şeirində də mövzu məhəbbət olsa da, cərəyan edən hadisələrin salxım söyüdün fonunda verilməsi ağacın daşıdığı universal simvolik kodun davamı kimi nakam məhəbbəti, ayrılığı simvolizə edir:

*Səninlə ilk dəfə gəldik bu bağa,*
*Döndü ürəyimiz sevincdən dağa,*
*Görüşdük elə xoş, sakit yerdə ki,*
*Sən oldun, mən oldum, bir də, bir də ki,*
*Sular kənarında salxım söyüdlər...*
*Hayana yollansam, hayana getsəm,*
*Dağlara dırmansam, arana getsəm,*
*Yenə də hər zaman ürəyimdəki*
*Sənsən, eşqimizdir, bir də, bir də ki,*
*Sular kənarındakı salxım söyüdlər....* [6, s.16]

Poetik düşüncədə çoxmənalı simvolik funksiyaya malik "ay" obrazının zaman keçdikcə ənənəvi, tipoloji-semantik funksiyası yenilənərək "ay işığı" ilə əvəzlənməsi, fərdi-intuitiv düşüncə modeli kimi fərqli mənalarda obrazlaşdırılması aparıcı olmuşdur. Ay işığının bir-birinə zidd, təzadlı, fərqli assosiasiyalarla saflığı, paklığı, yaddaş və xatirəni, mənfi planda ölümü simvolizə etməsi qeyd olunan məqamla əlaqəli idi.

Simvollaşmada yalnız konkret, seçilmiş təbiət obrazları deyil, şairin iti, dəqiq, sərrast müşahidə yolu ilə müəyyən təəssüratlarından yaranan fikir, düşüncə axını təbiət obyektlərinin,

hadisə və təzahürlərinin mənalandırılması əsasında müxtəlif assosiasiyalarla simvollaşmaya imkan yaradır.

Təbiət təsvirləri, obyekt və predmetləri, mənzərə yalnız təqdimat, dekor xarakteri daşımır. XX əsr Azərbaycan şeirində təbiətin müstəqil mövzu kimi təqdimi ənənəvi olaraq təbiət təsvirlərinin, obrazlarının qəlibləşmiş bədii təsvir vasitəsi kimi estetik funksionallığı üzərində deyil, dərin fəlsəfi, ictimai-sosial kateqoriya kimi obrazlılıq elementinə çevrilməsi ilə diqqət çəkir. Obyekt öz-özlüyündə heç bir poetik funksiyaya malik deyil. Obyekt şəxsləndirildikdə bənzəyənlə bənzətmə əlaqəsi qurulduqda simvollaşır. Təbii ki, müəyyən fikrin yaranması üçün ilk təkanverici amil obyektin təsviridir. Obyektin simvollaşması müxtəlif cür təzahür edə bilər. Obyektə fərdi-intuitiv yanaşma, onun dərk olunub qavranılma prosesi müxtəlif situasiyalarla əlaqəli ola bilər. Burada zaman və ictimai faktorlar əsas önəm kəsb edir.

XX əsr Azərbaycan şeirində müəyyən mənzərə, lövhə və təbiət hadisələrinin təsvir və təəssüratdan yaranan simvoliklik aparıcıdır. Yəni müşahidə, təəssürat önəmli rol oynayır. M.Müşfiqin "Göy göl", "Yalnız ağac", R.Rzanın "Nərgiz", "Novruzgülü", "Kövrək budaq", "Salxım söyüdün sarı yarpaqları", "Fil və filban", "Tufan önündə", H.Arif "Dərələr çəkir", "Söyüd payası", M.Araz "Bir ağac yıxıldı", M.Yaqubun "Bənzəyiş", H.Kürdoğlunun "Palıd yanır, tək yanır" və s. şeirləri adi bir təbiət təəssüratı əsasında yaransa da, fikrin hüdudları genişlənir.

Hüseyn Kürdoğlunun "Palıd yanır, tək yanır" [3, s.60] şeirində simvolik məzmun olduqca güclüdür. Palıd ağacının yanması şairdə qəribə assosiasiyalar doğurur. Yanan ocaqda söyüd, şam, qovaq ağacları yanıb külə dönsə də, palıdın tək yanması və mübarizəsi qəribə assosiasiyalar yaradaraq ömrünü əzabla yaşayan insanın faciəsinə çevrilir. Bərkə-boşa düşən ağaclar bircə anın içində ömürlərini başa vurdular, palıd isə əzmkarlığı, qüvvəsi ilə təslim olmur. N.Həsənzadənin "Badam" şeirində mart ayında günün istisinə aldanıb tumurcuqlayan badam ağacının birdən-birə dəyişən hava, rüzgar, külək, qar, sərt soyuğa tuş gəlməsi ağaclar çiçək açanda badamın çiçəksiz qalmasına səbəb olur. Müəllif bu təsviri, müşahidələrini ümumiləşdirərək əsas fikrini, qayəni konkretləşdirir.

*Saxta təbəssümləri,*
*yalançı qayğıları*
*görəndə ayılıram,*
*yadıma düşür*
*badam.* [2, s.31]

Bədii yaradıcılıqda təbiət obrazlarının, obyektlərinin simvollaşaraq ictimai fikrin daşıyıcısına çevrilməsi aparıcı yönümdür. H.Arifin "Dərələr çəkir", H.Kürdoğlunun "Palıd yanır, tək yanır", M.Arazın "Bir ağac yıxıldı", "H.Arifin "Söyüd payası", "Köz", "Kök və budaq", M.Yaqubun "Bənzəyiş" və s. şeirlərdə müşahidə, ani təəssüratla yaranan təbiət obyektlərinə və obrazlarına baxış şairdə müəyyən assosiasiyalar doğurur, artıq konkret obrazın daşıdığı simvolik məna deyil, obrazın simvolik məzmununda şairin ictimai hadisələrə münasibəti konkretləşir.

## Nəticə / *Conclusion*

Elmi-nəzəri, bədii nümunələr əsasında apardığımız müşahidə və təhlillər əsasında qeyd edə bilərik ki, təbiət hadisə və təzahürləri, obyekt və predmetləri ilə bədii düşüncənin yaddaşla, kök və mənşə ilə bağlılığını təsbitləyən, hər bir mərhələdə yeni təzahür formaları ilə yenilənən əsas obrazlılıq vasitələrindən biridir. XX əsr Azərbaycan şeirində insan-təbiət əlaqələri, tərəflər arasında disharmoniya, ekoloji böhran bədii yaradıcılıqda təbiətin dərk olunması və ifadə məqamlarında da müəyyən dəyişikliklər yaratmışdır. Təbiət obraz, təsvir, obyekt və predmetləri yalnız estetik funksiya daşıyıcısı, bədii təsvir elementi kimi deyil, fəlsəfi, psixoloji, ictimai-sosial məzmunlu mövzu kimi ənənəvi obrazların simvolik məzmunluluğunu daha da geniş məzmuna çevirmişdir.

**Ədəbiyyat / *References***

1. Babayev N. (Nəbi Xəzri). Bakının səhəri. Şeirlər. – Bakı: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı, 1954, 120 s.
2. Həsənzadə N. Mənim gecəm-gündüzüm. – Bakı: Gənclik, 1973, 236 s.
3. Kürdoğlu H. Seçilmiş əsərləri. 2 cilddə, I c. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, 300 s.
4. Qarayev S. Mifoloji xaos:strukturu və poetikası. – Bakı: Elm və təhsil, 2016, 212 s.
5. Qasımov C. Repressiyadan deportasiyaya doğru. – Bakı: Mütərcim, 1998, 292 s.
6. Nəbi Xəzri. Seçilmiş əsərləri. 2 cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004.
7. Rəsul Rza. Seçilmiş əsərləri, I c. – Bakı: Azərnəşr, 2002.
8. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, I c. – Bakı: Şərq-Qərb, 2005, 264 s.
9. Костомаров М.И. Славянская мифология. Глава II, Жизнь духовная. К, 1994, стр.58-88. https://rodnovery.ru/images/knigi/kostomarov-slavyanskaya-mifologiya.pdf

## Символическая функция природных объектов и предметов в азербайджанской поэзии 1920-1960-х годов

**Гюнай Гараева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gunaygarayeva@gmail.com

**Резюме.** Явления и проявления природы, её объекты и предметы занимают важное образотворческое место в художественном мышлении. Такие элементы природы, как гора, камень, скала, дерево, море, родник и другие, являясь активными компонентами поэтического сознания, выполняют не только эстетическую функцию, но и служат средством моделирования и постижения окружающего мира, тем самым приобретая философское значение и символическое содержание.

В творчестве каждого поэта в зависимости от его памяти, мировоззрения, способа восприятия и осмысления жизни, один из природных элементов становится ведущим, превращаясь в образ-символ, который выражает намерение, идею поэта, а также является проявлением его индивидуальных интуитивных чувств. Символические образы природы – гора, платан, море, камень, скала, фиалка и др. – часто повторяются в национальной поэзии и приобретают устойчивое значение. В статье на основе поэтических произведений С.Вургуна, Р.Рзы, А.Керима, Н.Хязри, Г.Касымзаде, Н.Гасанзаде, М.Якуба, Г.Кюрдоглу, Т.Байрама и других авторов рассмотрены образно-символические функции традиционных природных символов, различные символические оттенки горы как коренного и универсального символа, трансформация образа дерева в современной поэзии в виде платана, дуба, ивы, тополя и других вариаций, а также различные символические значения образа луны и лунного света. Все эти аспекты будут подвергнуты подробному анализу.

**Ключевые слова:** поэзия, человек – природа, символ, гора, дерево, лунный свет